**UOT:** 32; 327; 329
**KBT:** 66.1(0)
**DOI:** 10.33864/2617-751X.2024.v7.i2.156-166
**MJ №** 217

# Siyasi elitanin mahiyyətinə konseptual yanaşmalar

**Tural Qasımov***
**Elman Nəsirov****

**Abstrakt.** Siyasi elita anlayışı tarixin müxtəlif dövrlərində demək olar ki, bir çox tədqiqatçının müzakirə mövzusu olmuşdur. Bu fenomen haqqında müxtəlif nəzəriyyələr və konsepsiyalar irəli sürülmüşdür. Bu gün biz hər hansı bir cəmiyyəti siyasi elitasız təsəvvür edə bilmərik. Həm demokratik, həm də qeyri-demokratik dövlətlərdə hakimiyyət mütəşəkkil azlığın, yəni siyasi elitanın əlində cəmləşir. Elə bu məqalə də bir çox alimi maraqlandıran, əsas etibarilə siyasi elitanın mahiyyəti, məzmunu eləcə də siyasi elitanı təşkil edən elitar qrupların cəmiyyətin idarə olunmasında və qərarların qəbul edilməsində rolu kimi suallara aydınlıq gətirməyə çalışılmışdır. Q. Moska, V. Pareto, R. Mixels və s. kimi mütəfəkkirlərin siyasi elita nəzəriyyəsi və konsepsiyaları araşdırılmış və bu konsepsiyalar arasında ətraflı müqayisəli təhlil aparılmışdır. Müxtəlif yanaşmaların dərindən öyrənilməsi, siyasi elitanın əsas mahiyyətinin dərk olunmasında müstəsna rol oynayır.

**Açar sözlər:** siyasi elita, idarə edən, nəzəriyyə, konsepsiya, demokratik elitizm

* Bakı Dövlət Universitetinin “Siyasi institutlar və sistemlər” ixtisası üzrə doktorantı; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: tural.qasimov12@gmail.com
https://orcid.org/0000-0003-3927-9857
** Siyasi elmlər doktoru, professor,
Dövlət İdarəçilik Akademiyası, “Beynəlxalq münasibətlər və xarici siyasət” kafedrasının professoru; Bakı, Azərbaycan
E-mail: elmannasirov@yahoo.co.uk
**Məqaləyə istinad:** Qasımov, T., & Nəsirov, E. [2024] Siyasi elitanin mahiyyətinə konseptual yanaşmalar. *“Metafizika” jurnalı, 7*(2), səh.156-166.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i2.156-166

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 12.04.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 01.05.2024*
*Çapa qəbul edilmişdir: 30.05.2024*

## 1.Giriş

Vətəndaşların və müxtəlif ictimai qrupların siyasi həyatda iştirakı və yeri eyni səviyyə kəsb etmir. Eləcə də siyasi sferada xüsusi rol oynayan sabit qruplar cəmiyyətdə özünü qabarıq surətdə təzahür etdirir. Politoloji ədəbiyyatda belə qruplar siyasi elita kimi müəyyənləşdirilir.

İdarəetməni bilavasitə həyata keçirən və siyasi qərarları qəbul edən mütəşəkkil azlıq müxtəlif səciyyələnir: siyasi elita, idarə edən elita, hakim elita, siyasi sinif, idarə edən sinif və s. Ümumiyyətlə, elmi ədəbiyyatda elita termini cəmiyyətin ağalıq edən hissəsi, idarə edən təbəqəsi mənasında müxtəlif məfhumlarla nəzərə çatdırılır. Sosial iyerarxiyada elita yüksək pillə kimi səciyyələnir [3, s.71].

Siyasi elita sinfin və ya sosial təbəqənin bir hissəsi olmaqla mütəşəkkil azlıq, nəzarət edən qrup, real siyasi hakimiyyətə sahib olan, siyasi qərarların qəbulunda bilavasitə və müntəzəm iştirak edən xüsusi siyasi qüvvə kimi mənalanır [6, s.280].

Deməli, siyasi elita konkret şəxslərin sadəcə, mexaniki məcmusu deyildir, hakimiyyəti əldə saxlamağa can atan peşəkar, mütəşəkkil sosial qrupdur. Siyasi elita hakimiyyət sferasında və dövlət idarəçiliyində peşəkar surətdə fəaliyyət göstərən şəxslərdən ibarət qrupdur, hər şeydən əvvəl, dövlət idarəetmə sferasında ixtisaslaşdırılmış funksiyaları yerinə yetirir. Məşhur politoloq R. Şaran qeyd edir ki, siyasi elita geniş mənada müəyyən dövr, bəzən bütöv nəslin həyatı ərzində ölkənin siyasi kursunun formalaşmasına və reallaşmasına təsir göstərənləri özündə birləşdirir.

Deyilənləri nəzərə alaraq siyasi elitanı belə müəyyənləşdirmək olar: o, bu və ya digər birliklərin sosial maraqlarını ifadə edən, müəyyən siyasi dəyərlərin və məqsədlərin uyğunlaşdırılmasını təmin edən və qərarların qəbulu prosesinə nəzarət edən qrupdur [8, s.132].

İdarə edən elitanı təşkil edən bütün digər qruplardan fərqli olaraq siyasi elita siyasi hakimiyyətin həyata keçirilməsində bilavasitə iştirak edir. Beləliklə, siyasi elita cəmiyyətin müəyyən qrupu, təbəqəsi olmaqla dövlət hakimiyyətini öz əlində cəmləşdirir və komanda mövqeyi tutmaqla cəmiyyəti idarə edir [7, s.288]).

Siyasi elitanın mahiyyəti, məzmunu və strukturu barədə geniş, əhatəli təsəvvürə malik olmaq üçün hər şeydən əvvəl, "siyasi elita" anlayışına yanaşmalara münasibət bildirmək vacibdir. Elitizm ideyası antik dövrdən məlumdur. Cəmiyyətin azlığa, əhalinin digər hissəsi üzərində hökmranlıq edənlərə ayrılmasının qanunauyğunluğu ideyası hələ qədim dövrdə bildirilmişdir. Belə ki, Konfutsi cəmiyyətin "nəcib kişilərə" (idarə edən elitaya) və "aşağı adamlara" (rəiyyətə) ayrıldığını qeyd etmişdir. Cəmiyyətin

idarə edən azlığa ayrılmasını Platon da bildirmiş və bunu əhalinin bu və ya digər qruplarının qəlbinin siyasi qeyri-bərabərliyi ilə əlaqələndirmişdir.

**2.Elita konsepsiyası**

Elita konsepsiyası isə XX əsrin başlanğıcında İtaliyada siyasi sosiologiya məktəbi nəzəriyyəçiləri Q. Moska, V. Pareto, R. Mixels, C. Sorel tərəfindən yaradılmışdır.

İtaliya sosioloqu və politoloqu Qaetano Moskanın (1854-1941) konsepsiyasının çıxış nöqtəsini cəmiyyətin vəziyyətinə görə iki qeyri-bərabər qrupa – hökmranlıq edən azlığa və asılı vəziyyətdə olan çoxluğa bölünməsi təşkil edir. Bununla bağlı bəzi tədqiqatçıların belə bir ümumi fikrini ifadə etmək vacibdir: "Sivilizasiyaya yaxınlaşmaqdan başlayaraq, müasir qabaqcıl və qüdrətli cəmiyyətlərə qədər bütün cəmiyyətlərdə həmişə iki sinif yaranır: idarə edənlər və idarə olunanlar. Birinci həmişə çoxsaylı azlıqdır, bütün siyasi funksiyaları yerinə yetirir, hakimiyyəti inhisara alır, özünə xas olan üstünlüklərdən istifadə edir, eyni zamanda digəri daha çoxsaylıdır, birinci tərəfindən idarə olunur və nəzarət edilir".

Elitanın hakim mövqeyinin əsasını (Moskanın "idarə edən sinif" adlandırdığı) fərqləndirici keyfiyyətlər olan zənginlik, hərbi fədakarlıq, mənşə, zehni üstünlük və b. yanaşı, yüksək dərəcədə təşkil olunmaq, həmrəylik təşkil edir. Buna görə idarə edən azlıq qapalı qrupa çevrilmək meylinə malikdir. "Bütün idarə edən siniflər əgər qanuni olmasa, faktiki olaraq irsiliyə cəhd edirlər" [1, s.29].

Q. Moska idarə edən sinfin inkişafında iki başlıca meylin mövcudluğunu qeyd edir:

– aristokratik, bu, qrupun irsilik kəsb etməsinə cəhd etməsində təzahür edir. Belə meylə yiyələnmək idarə edən sinfin "qapalılığına və kristallaşmasına", sonra isə elitanın nəsli pozulmasına gətirib çıxarır;

– demokratik, bu öz ifadəsini aşağı təbəqələrin idarəetməyə daha qabiliyyətli nümayəndələrinin hesabına idarə edən sinfin yeniləşməsində tapır. Bu meylə malik olmaq elitanın nəslən pozulmasının qarşısını alır, onun effektli rəhbərlik etməsinə imkan yaradır.

Q. Moskanın fikrincə, bu meyllərin tarazlığı daha çox üstünlük təşkil edir.

Hakimiyyəti bir nəfər, bütün vətəndaşlar dərhal həyata keçirə bilməz. Moska hesab edirdi ki, "siyasi rəhbərlik sözün ən geniş mənasında inzibati, hərbi, dini, iqtisadi və əxlaqi rəhbərliyi özündə birləşdirir, xüsusi, başqa sözlə mütəşəkkil azlıq tərəfindən həyata keçirilir". Hər şeydən əvvəl, azlıq çoxluğu ona görə idarə edir ki, mütəşəkkildir. Bundan əlavə idarə edən azlıq kütlələrdən özünə xas olan xüsusi keyfiyyətlərlə fərqlənir.

"Siyasi sinfin" təhlilini Moska təşkilati yanaşma əsasında həyata keçirmişdir. Siyasi sinfə xas olan qrup halında həmrəylik və həmfikirlilik

onda mövcud olan təşkilatçılıq, struktur sayəsində əldə edilir. Hər bir cəmiyyətin inkişafı sosial və siyasi təşkilin üsulundan asılı olmayaraq rəhbərlik edən siniflə istiqamətlənir. Siyasi sinfə daxil olmaq fərdlərdə xüsusi keyfiyyət və qabiliyyətin mövcudluğunu nəzərdə tutur. Moska "idarə edən sinif" haqqında ideyanı hələ "Siyasi elmin əsasları" (1896) kitabında irəli sürmüşdür [5, s.323].

Praqmatik oriyentasiya həm də Vilfredo Paretonun (1848-1923) əsərlərində əksini tapmışdır. O, qeyd edirdi ki, "bəşəriyyətin tarixi" daim elitaların əvəzlənməsi tarixidir; bəziləri yüksəlir, tənəzzülə məruz qalır. Elita nəzəriyyəsini V. Pareto "Ümumi sosiologiya traktatı" əsərində şərh etmişdir. O, Elita nəzəriyyəsi kontekstində cəmiyyətin dinamik tarazlığının amillərini və zəminini üzə çıxarmağa cəhd etmişdir.

Pareto elitanın rolunu əsaslandırmaq üçün sosial tarazlıq konsepsiyasından çıxış etmişdir, çünki cəmiyyət sistem olmaq etibarilə məhz tarazlığa cəhd edir. Tarazlıq vəziyyəti xeyli qüvvələrin qarşılıqlı fəaliyyəti ilə təmin edilir. Pareto bu qüvvələri element adlandırır. Elementlərin dörd qrupundan (iqtisadi, sosial, siyasi, intellektual) insan fəaliyyətinin motivasiyasına (səbəblərinə) xüsusi diqqət yetirir. O, insan fəaliyyətinin başlıca motivini və tarixin hərəkətverici qüvvəsini psixoloji stimul kimi müəyyənləşdirmişdir.

Pareto belə bir mövqedən çıxış edir ki, fundamental sosial qanun cəmiyyətin differensiallığıdır, bunun əsası isə kütlələrin azlıq təşkil edən idarə edənlərə (elitaya) qarşı durmasından ibarətdir. O, elita adlandırdığı idarə edənlər qrupuna elə fərdləri daxil edir ki, onların fəaliyyəti bu və ya digər sahələrdə yüksək göstəricilərlə fərqlənir. Deməli, Pareto elitar qrupları fərqləndirmək üçün, bu qrupları əhalinin digər kütlələrindən fərqləndirən xüsusi keyfiyyətlərə mühüm üstünlük verir.

V. Pareto hakimiyyətə münasibətdə elitanın iki tipinin mövcudluğunu qeyd edir: idarə edən (birbaşa və ya dolayı) və idarə etməyən və ya əkselita (elita üçün xarakterik keyfiyyətlərə malik insanlardan ibarət olan, lakin idarə etməyə aid olmayan).

Beləliklə, sosial sistemin tarazlığı elitanın dövr etməsi hesabına təmin olunur. Dövr etmənin ləngiməsi və ya dayanması idarə edən elitanın nəslən pozulmasına və cəmiyyətdə narazılığın artmasına gətirib çıxarır. Bu cəhət inqilabla, elitanın dövr etməsinin bərpası ilə nəticələnir. İnqilabın başlıca yekunu isə elitanın radikal əvəz olunmasıdır.

Siyasi elitaların tədqiqinə alman politoloqu, faşizmin ideoloqu və Mussolininin dostu Robert Mixels böyük töhfə bəxş etmişdir. Sosial münasibətləri tədqiq edərək o belə nəticəyə gəlir ki, elitaların hökmranlığı kütlələrin idarəetmədə birbaşa iştirak etmək imkanına malik olmaması ilə müəyyən olunur [6, s.137]. Vətəndaşların maraqlarının nümayəndəliyi,

qərarın qəbulu və reallaşması üçün xüsusi təşkilatlar (partiyalar, həmkarlar ittifaqı, hakimiyyətin nümayəndəli orqanları və b.) zəruridir, bunların inkişafı iyerarxiyalı və xüsusi idarəetmə təbəqəsi ilə bağlıdır. Vaxtı gələndə rəhbərlik edən azlıq kütlələrdən daha çox təcrid olunmağa cəhd edir, qapalı qrup-oliqarxiya yaradır, bu qrup isə hər şeydən əvvəl öz mövqeyini saxlamağa çalışır. Belə meyli R. Mixels "oliqarxiyanın dəmir qanunu" adlandırır.

**3.Oliqarxiya konsepsiyası**

Mixelsin oliqarxiya konsepsiyasına görə, hakimiyyətin oliqarxiyalı strukturu yalnız rəhbərlərin özlərini hakimiyyətdə əbədiləşdirməyə və şəxsi nüfuzlarını möhkəmləndirməyə deyil, ən başlıcası kütlələrin ətalətinə, bəzi mütəxəssis-peşəkarlara inanmalarına hazır olmalarına və siyasi təşkilatların texniki xüsusiyyətlərinə əsaslanır.

Q. Moska, V. Pareto, R. Mixels elitologiyanın əsasını – əlifbasını formalaşdırmışlar. Elitanın müasir tədqiqatçıları ayrı-ayrı müddəaları yenidən mənalandırmaqla klassik konsepsiyaların sarsılmaz fundamental müddəalarına əsaslanırlar.

Müasir elitoloqlar elitanın mahiyyəti, məzmunu və strukturuna aid fikirlərini əsaslandırmaq üçün məhz Moska, Pareto və Mixelsin müddəalarından istifadə edirlər. Elita nəzəriyyəsinin bu yaradıcıları "elita" anlayışının məzmunu ilə bağlı aşağıdakıları başlıca meyar hesab edirlər:

1.Elitarlıq hər bir cəmiyyətə xasdır. Onun əsasını insanları fərqləndirən müəyyən cəhətlər (tipoloji, zehni, əxlaqi və b.) şərtləndirir.

2. Elita xüsusi, spesifik və təşkilatçılıq xüsusiyyətləri ilə seçilən təbəqədir.

3. Kütlələr elitanın hakimiyyət səlahiyyətlərinə malik olması hüququnu, başqa sözlə legitimliyini etiraf edir. Bu etiraf siyasi hakimiyyətin fundamental xarakteristikasıdır.

4. Hakimiyyətdə olan qüvvələr hakimiyyətdən əl çəkmədiyi üçün, onun uğrunda mübarizə gedişində elita bir-birini əvəz edir.

Qərb siyasi elmində elita nəzəriyyəsi Q. Almondun, S. Verbanın, R. Dalın, Ziqlerin, Mannheymin, T. Parsonsun, C. Sartorinin, C. Şumpeterin və digərlərinin əsərlərində geniş inkişaf etdirilmişdir.

Müasir politoloji tədqiqatlarda hər şeydən əvvəl, elita hakimiyyətə sahib olan şəxslər kateqoriyası kimi şərh edilir. Bu kateqoriyanın izahında belə bir məqam əsas götürülür: hakimiyyətə sahib olanların hakimiyyət mövqeyini hansı faktorlar şərtləndirir: mənşə, maliyyə vəziyyəti və ya yaxşı xidmətləri. Bu faktorlar elitanın tipologiyasının meyarı adlandırılır.

Elmi ədəbiyyatda siyasi elitanın nəzəri cəhətdən araşdırılmasına üç əsas yanaşma mövcuddur:

1. Pozisiya – (mövqe) hakimiyyət sistemində mövqeyindən çıxış edərək bu və ya digər şəxsin siyasi təsir dərəcəsinin müəyyənləşdirilməsi. Belə yanaşmaya görə elitaya hər şeydən əvvəl hökumət və parlament üzvləri və başqaları, lakin "gizli" fiqurların siyasi təsiri açıq şəkildə qiymətləndirilmir;

2. Nüfuz – siyasətçinin reytinqinin ekspert vasitəsilə qiymətləndirilməsinin üzə çıxarılmasına əsaslanır, lakin belə halda ekspertin subyektiv rəyinin analitikdən asılılığı faktı istisna edilmir.

3. Strateji qərarı qəbul edən şəxslərin seçiminə əsaslanmaq (bütövlükdə). Bu yanaşmanın əsasını hakimiyyət fenomeninin şərhi təşkil edir.

Bu yanaşmaları əsas götürərək bəzi tədqiqatçılar siyasi elitanı belə müəyyənləşdirir: "Siyasi elita ayrıca dəyərlərin və davranış normasının ümumiliyi əsasında birləşən, hakimiyyət resurslarına yiyələnən şəxslər qrupudur, belə mövqe ona ən mühüm qərarları qəbul etməyə imkan yaradır, eləcə də nüfuzunu və üstün mövqeyini təmin edir [2, s.295].

Müasir siyasi elmdə elita nəzəriyyəsi və konsepsiyaları bir sıra istiqamətləri ilə diqqəti cəlb edir. onlara aiddir:

– struktur-funksional nəzəriyyə. Mahiyyəti ondan ibarətdir ki, yerinə yetirdiyi funksiyalarla bağlı bəzi insanlar digərləri üzərində üstünlük təşkil edirlər. Elitanın hakimiyyət hüququnu kütlələr qəbul edirlər. Hakimiyyət uğrunda mübarizə gedişində elitalar bir-birini əvəz edir.

– radikal elitizm (sol liberal konsepsiya). Başlıca nümayəndələri R. Mixels və R. Mills hesab olunan bu konsepsiyaya görə, cəmiyyət yalnız bir hakim elita tərəfindən idarə olunur. Xalqın texniki idarə olunmasının həyata keçirilməsi qeyri-mümkündür: hər halda əhalisi çox olan ölkələrdə birbaşa demokratiya mümkün deyil, nümayəndəli demokratiya isə hökmən xalqın öz suverenliyinin bir hissəsini itirməsinə gətirib çıxarır, seçilən nümayəndələrin mənfəəti təmin olunur və müəyyən qanunvericiliyə görə onlar elitaya çevrilirlər [2, s.296].

– dəyər nəzəriyyəsi. Bu nəzəriyyəyə görə elita cəmiyyəti idarə etmək üçün yüksək qabiliyyətə malik təbəqədir. Başlıca nümayəndələri V. Ropke və Orteqa-i-Qasset sayılan dəyər nəzəriyyəsi yüksək təbəqə olmaq etibarilə elitanın vəziyyətinə haqq qazandırır və elitanın cəmiyyətin mənafeyinə cavab verdiyini bildirir. Elitanın formalaşması demokratiyanın prinsiplərinə zidd deyildir [4, s.293].

– totalitar elitizm nəzəriyyəsi (nomenklatur elita). Bu nəzəriyyənin yaradıcıları M. Cilas və M. Voslenski hesab olunur. Həmin nəzəriyyəyə görə bir sıra dövlətlərdə müəyyən zaman ərzində çoxlu idarə edənlərə malik olan totalitar sistemin saxlanmasında köklü maraqları olan idarə edən təbəqə formalaşır.

– elita plüralizmi konsepsiyasının (R.Dal, C.Keller, O.Ştammer, R.Mixels) müəllifləri hesab edirlər ki, çoxlu elita mövcuddur. Ona daxil olan qruplardan heç biri həyatın bütün sahələrinə eyni zamanda həlledici təsir göstərmək qabiliyyətinə malik deyildir.

Demokratiya şəraitində hakimiyyət elitanın müxtəlif qrupları arasında bölünür və onlar qərarın qəbul olunmasına təsir göstərir. Elitanın kütlələrə təsiri seçkilər, referendum, sorğu, mətbuat, təzyiq qrupları vasitəsilə həyata keçirilir.

– demokratik elitizm nəzəriyyəsi. Bu nəzəriyyə dünya politologiyasının üç görkəmli nümayəndəsinin – Yozef Şumpeter, Robert Dal və Covanni Sartorinin konsepsiyalarına əsaslanır. Demokratik elitizm nəzəriyyəsi üçün ümumi cəhət ondan ibarətdir ki, seçki kompaniyası dövründə hakimiyyətə rəhbərlik uğrunda rəqabət mübarizəsi demokratik xarakter daşıyır. Söhbət siyasi elitanın əldə etdiyi yeni üsuldan (seçkilərdə xalq tərəfindən müdafiə olunması uğrunda mübarizədən) və elitanın öz siyasi taleyinin sıravi vətəndaşlardan asılılığını dərk etməsindən gedir. Demokratik elita nəzəriyyəsində elita liberal-demokratik dəyərlərin (azadlığın, bərabərliyin, əmək hüququnun, sosial təminatın və b.) müdafiəsi kimi nəzərdən keçirilir, eləcə də iddia edilir ki, elita ağalıq etmir, kütlələrin razılığı əsasında azad seçkilər vasitəsilə onlara rəhbərliyi həyata keçirir [1, s.293]. Demokratik elitizm nəzəriyyəsinin başlıca müddəalarından biri ondan ibarətdir ki, demokratiya elitanın yaradıcı məhsuludur, liberal demokratiya isə elitanın razılaşdırılmış tipinin məhsuludur.

Elitizmin xeyli tərəfdarlarının əsas məhdudluğu ondan ibarətdir ki, demokratik cəmiyyətdə mövcud olan sosial institutların üstünlüyünü obyektiv qiymətləndirməyə qadir deyillər.

Elmi-texniki və texnoloji inqilabın coşqun inkişafı, geniş kütlələrin təhsil almaq imkanı, əhalinin həyat səviyyəsinin nəzərə çarpacaq dərəcədə yüksəlməsi (xeyli ölkələrdə), şəxsiyyətin hüquq və azadlığının təmin olunmasının effektli mexanizminin yaradılması, kütləvi informasiya vasitələrinin rolunun artması elə yeni reallıqlar yaradıb ki, bu məkanda siyasi elita formalaşır və fəaliyyət göstərir. Belə şərait elitanın qrup halında birliyinin, həmrəyliyinin siyasi rolu və funksiyasının bölüşdürülməsi üsulunu nəzərə çarpacaq dərəcədə dəyişdirmişdir, eləcə də onun hökmranlığını təmin edən resursların dəyişməyə məruz qalmasını şərtləndirmişdir. Bu proseslər hakimiyyətin real strukturunun tədqiqi üçün istifadə olunan yanaşmaların çoxluğunu müəyyənləşdirmişdir.

Siyasi elitanı və onun hüdudunu müəyyənləşdirmək üçün aşağıdakı meyarları nəzərə almaq vacibdir:

– birincisi, cəmiyyətin siyasi elitasını leqal siyasi fəaliyyətlə peşəkar məşğul olan şəxslər təşkil edir, onların bütün iddialarının son məqsədi hakimiyyətdir.

– ikincisi, onlar nisbi ayrıca və mütəşəkkil qrupu təkil edirlər, prinsip etibarilə mövcud siyasi rejimdə müəyyənləşdirilən "oyun qaydalarını" gözləyirlər, bununla belə siyasi elitanın müxtəlif fraksiyalarının maraqları, dəyərləri və məqsədləri ümumi ola bilər, həm də hansılarınsa mühüm fərqləri də nəzərə çarpar məsələn, hakim və müxalifətdə olan qrupun.

– üçüncüsü, bu insanların siyasi xadimlər kimi, özünəməxsus legitimləşməsi ictimaiyyət tərəfindən etirafı reallıqdır.

Siyasi elitanın aparıcı hissəsi kimi idarə edən elitanın fərqləndirici cəhəti ondan ibarətdir ki, məhz siyasi kursu o müəyyənləşdirir, daha əhəmiyyətli siyasi-idarəetmə qərarlarını qəbul edir və siyasi resurslara nəzarəti həyata keçirir. İdarə edən elitaya siyasi elitanın elə hissəsi birləşir ki, onu müdafiə edir, lakin hakimiyyətdə bilavasitə təmsil edilmir.

Müəyyən qruplar və siyasətçilər cəmiyyət üçün strateji qərarlar işləyib hazırlayır, digərləri siyasi məqsədləri müəyyənləşdirir, üçüncü tərəf – başqa sözlə vətəndaşların əksəriyyəti qəbul olunan qərarlara tabe olmaqla və onu yerinə yetirməklə kifayətlənir (könüllü və ya məcburi) [5, s.214].

**4.Nəticə**

Nəticə olaraq qeyd edə bilərik ki, hətta sabit və inkişaf etmiş demokratik cəmiyyətlərin siyasi praktikası təsdiqləyir ki, hakimiyyətin bölünməsi və reallaşması prosesi heç də bütün vətəndaşların hamısının bu prosesdə bərabərhüquqlu iştirakını nəzərdə tutmur. Həmişə və hər yerdə hakimiyyətdə kütlələri özünə tabe olmağa məcbur edən məhdud dairə – idarə edən azlıq iştirak edir. Siyasi qeyri-bərabərlik hər hansı cəmiyyətdə mütləq reallıq kimi etiraf edilmişdir, demokratiya isə nə qədər ki əldə edilə bilən olmayıb, məhz illüziya olaraq qalmışdır.

## ƏDƏBİYYAT

1. Арон, Р. (1993). *Демократия и тоталитаризм.* Москва, Наука, 496 с. ISBN: 978-5-94865-961-9
2. Dahl, R. (2004). *Demokratiya haqqında.* Bakı, Azərbaycan nəşriyyatı, 248 s. ISBN:5-87459-189-3
3. Əfəndiyev, M. Ə. (2013). *Politologiya: Dərslik.* Bakı, Elm, 515 s. ISBN 978-9952-453-34-8
4. Əfəndiyev, M. Ə. (2004). *Siyasi elmin əsasları.* Bakı, Siyasət, 603 s.
5. Мухаев, Р. Т. (2005). *Теория политики.* Москва, Юнити, 623 с. ISBN: 5-238-00952-6

**6.** Понеделков, А. В. (1995). *Политическая элита: генезис и проблемы ее становления в России.* Ростов-на-Дону, 347 с. ISBN: 5-87872-042-6

**7.** Пугечев, В. П., & Соловьев, А. И. (2019). *Введение в политологию.* Москва, Аспект Пресс, 448 с. ISBN:978-5-406-02708-0

**8.** Эндрувайт, Г. (1998). *Элиты и развитие: Теория и исследование влияния элит на процессы социально-политического развития.* Политическая наука. Элиты в сравнительно - исторической перспективе. Проблемно-тематической сборник. Москва, 144 с.

## Концептуалные подходы к сущности политической елиты

**Турал Гасымов***

**Эльман Насиров****

**Абстракт.** Понятие политической элиты было предметом обсуждения многих исследователей в разные периоды истории. По поводу этого явления выдвигались различные теории и концепции. Сегодня мы не можем представить ни одно общество без политической элиты. Как в демократических, так и в недемократических государствах власть сосредоточена в руках организованного меньшинства – политической элиты. В статье в основном предпринята попытка прояснить вопросы, интересующие многих ученых, такие как сущность и содержание политической элиты, а также роль элитных групп, образующих политическую элиту, в управлении обществом и принятии решений. Были исследованы теории политической элиты и концепции таких мыслителей, как Дж. Моска, В. Парето, Р. Михельс, а также проведен обширный сравнительный анализ между этими концепциями. Углубленное изучение различных подходов играет исключительную роль в понимании базовой природы политической элиты.

**Ключевые слова**: политическая елита, управляющий, теория, концепция, демократический элитизм

---

* Докторант Бакинского Государственного Университета по специальности «Политические институты и системы»; Баку, Азербайджан (ответственный автор)
E-mail: tural.qasimov12@gmail.com
https://orcid.org/0000-0003-3927-9857
** Доктор политических наук, профессор,
Академия государственного управления, профессор кафедры «Международные отношения и внешняя политика»; Баку, Азербайджан
E-mail: elmannasirov@yahoo.co.uk

**Цитировать статью:** Гасымов М, Т., & Насиров, Э. [2024]. Концептуалные подходы к сущности политической елиты. *Журнал «Metafizika», 7(2),* с.156-166.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i2.156-166

**История статьи:**
*Статья поступила в редакцию: 12.04.2024*
*Отправлена на доработку: 01.05.2024*
*Принята для печати: 30.05.2024*

# Conseptual Approaches to the Essence of the Political Elite

**Tural Gasimov***
**Elman Nasirov****

**Abstract.** The concept of political elite has been the subject of discussion by many researchers in different periods of history. Various theories and concepts have been put forward about this phenomenon. Today, we cannot imagine any society without a political elite. In both democratic and non-democratic states, power is concentrated in the hands of an organized minority-the political elite. The article basically tries to clarify questions that interest many scientists, such as the essence and content of the political elite, as well as the role of elite groups forming the political elite in the management of the community and decision-making. The political elite theories and concepts of thinkers such as G. Mosca, V. Pareto, R. Michels were investigated, and an extensive comparative analysis was conducted between these concepts. In-depth study of different approaches plays an exceptional role in understanding the basic nature of the political elite.

**Keywords:** political elite, ruler, theory, conception, democratic elitism

## REFERENCES

1. Aron, R. (1993). *Democracy and totalitarianism.* Moscow, Nauka, 496 p. ISBN: 978-5-94865-961-9 (in Russian)
2. Dahl, R. (2004). *About democracy.* Baku, Azerbaijan publishing house, 248 p. ISBN: 5-87459-189-3 (in Azerbaijan)
3. Efendiyev, M. A. (2013). Political science: Textbook. Baku, Elm, 515 p. ISBN 978-9952-453-34-8 (in Azerbaijan)
4. Efendiyev, M. A. (2004). *Basics of political science.* Baku, Siyaset, 603 p. (in Azerbaijan)
5. Mukhaev, R. T. (2005). *Theory of politics.* Moscow, Unity, 623 p. ISBN: 5-238-00952-6 (in Russian)

* PhD student of Baku State University in "Political institutions and systems"; Baku, Azerbaijan (corresponding author)
E-mail: tural.qasimov12@gmail.com
https://orcid.org/0000-0003-3927-9857
** Doctor of political sciences, professor,
Academy of Public Administration, professor of "International relations and foreign policy" department; Baku, Azerbaijan
E-mail: elmannasirov@yahoo.co.uk

**To cite this article:** Gasimov, T., & Nasirov, E. [2024]. Conseptual Approaches to the Essence of the Political Elite. *“Metafizika” journal, 7(2),* pp.156-166.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i2.156-166

**Article history:**
*Received: 12.04.2024*
*Accepted: 30.05.2024*

**6.** Ponedelkov, A. V. (1995). *Political elite: genesis and problems of its formation in Russia.* Rostov-on-Don, 347 p. ISBN: 5-87872-042-6 (in Russian)

**7.** Pugechev, V. P., & Solovyov, A. I. (2019). *Introduction to Political Science.* Moscow, Aspect Press, 448 p. ISBN:978-5-406-02708-0 (in Russian)

**8.** Endruwhite, G. (1998). *Elites and development: Theory and research of the influence of elites on the processes of socio-political development.* Political Science. Elites in a comparative historical perspective. Problem-thematic collection. Moscow, 144 p. (in Russian)